## Hümayun muğamının instrumental variantlarının müqayisəli təhlili

**Yusifova Səadət (ADMİU)**
**Fakültə: Musiqi sənəti**
**İxtisas: etnomusiqişünaslıq**
**Kurs: II**
**Elmi rəhbər: Sənətşünaslıq üzrə elmlər doktoru, professor Ceyran Mahmudova**

Azərbaycan musiqişünaslığında muğamların müxtəlif aspektlərdən araşdırılmasına geniş yer verilir və bu sahədə böyük nəticələr də əldə edilib. Amma hələ tədqiqini gözləyən məsələlər də az deyildir. Elə az araşdırılan problemlərdən biri də muğamların müqayisəli təhlilidir.Bizim tədqiqat işimiz Hümayun muğamının instrumental variantda (tar və qarmon ifaçılarının ifasında) müqayisəli təhlilinə həsr olunmuşdur.

Azərbaycan muğamları mürəkkəb formaya, dərin fəlsəfəyə, orjinal melodikaya və intonasiya köklərinin müxtəlifliyinə malikdir. Hal-hazırda ifa olunan muğamlar XIV-XV əsrlərdə müxtəlif muğamların şöbə və yaxud guşəsi kimi tanınıb (məsələn, "Çahargah", "Segah" muğamları), bəzi muğamlar isə ("Üşşaq", "İraq", "İsfahan", "Hüseyni" ) XIII-XIV əsrlərdə dəstgah formasında ifa olunsa da, indi hər hansı bir muğamın ("Üşşaq", "Hüseyni", "Əraq"- "Rast" muğam ailəsinin , "Hicaz"-"Şur" muğamının , "İsfahan" isə "Bayatı-Şiraz" muğamının ) şöbəsidir. Belə muğamlardan biri də XIV-XV əsrlərdə Şərq xalqlarının musiqisində 24



şöbədən birinin adı olan "Hümayun" muğamıdır. "Hümayun" fars kəlməsi olub (همایون) bir neçə mənanı ifadə edir. **1)** uğurlu, səadətli, mübarək; **2)** şaha məxsus; **3)**Azərbaycan klassik muğamlarından birinin adıdır. Yeddi əsas muğamlarımızın içərisində Hümayun muğamı az ifa və tədqiq olunduğuna görə dissertasiya işimizin mövzusu aktualdır.

Hümayun muğamı yeddi əsas muğamlar içərisində "Bərdaştı" olmayan muğam idi və uzun illər də bu qaydada ifa olunurdu. Bərdaşt şöbəsi K.Əhmədov tərəfindən Hümayun muğamına daxil edilmişdir və hal-hazırda bu qaydada ifa olunur. Tar və qarmon ifaçılarının ifasında Hümayun muğamı Radio və televiziya fondunun arxivindən əldə edilərək, oxşar və fərqli cəhətləri müqayisə olunaraq təhlil edilmişdir.

Hümayun muğamının lent yazılarından əldə etdiyimiz nəticəyə görə, Hümayun muğamının Bərdaşt şöbəsinin digər muğamların bərdaşt şöbəsindən fərqli cəhəti burada 3 dayanacaq pərdənin mövcud olmasıdır ("re bemol", "do", "si bemol"). Bərdaşt şöbəsinin cümlələrinin sonluğu (I cümlə) "re bemol", (II cümlə) "do", (III cümlə) "si bemol" pərdələridir və kadensiyada yenidən "re bemol" (bəmdə) pərdəsinə gəlib həmin pərdədə tamamlanır.

Məruzədə Hümayun muğamının müstəqil növü olan "Qafqaz Hümayunu"nun (ona "Rast Hümayunu" da deyilir) tarixi-nəzəri problemləri də işıqlandırılmışdır.